*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 3, 2025*
*Səh. 76-82*

https://doi.org/10.62837/2025.3.76

**PUTAYEVA ELNARƏ ELDAR**
**filologiya üzrə fəlsəfə doktoru, dosent**
**Azərbaycan Dillər Universiteti**
**e-mail:putayeva.elnara@adu.edu.az**
**https://orcid.org/0000-0002-1719-1670**

# TƏNQİDİ TƏFƏKKÜRÜN ÖYRƏNMƏ PROSESİNƏ İNTEQRASİYASINA DAİR

**Xülasə**

Tənqidi yanaşma öyrənmə prosesinin xüsusi əhəmiyyət kəsb edən tərkib hissələrindən biri hesab olunur. Öyrənmə prosesinin vacib bir mərhələsi olaraq dəyərləndirilən tənqidi yanaşma tədris prosesində təhsilalanların müxtəlif bacarıqlar əldə etməsinə vəsilə ola bilir. Əldə olunan müxtəlif məlumatların bir çoxunun tənqidi təfəkkürün süzgəcindən keçirilməsi və təhlil olunması təlim prosesinin ehtiyac duyulan hissəsi hesab olunur. Tədris prosesində tənqidi təfəkkürü yüksək inkişaf etmiş tələbələrin yeni məlumatı daha yaxşı qavraması və mənimsəməsi müşahidə olunur.

Bəzi tədqiqatçılar tənqidi düşünmə və tənqidi oxu bacarıqları arasındakı əlaqəni araşdırmağa çalışmışlar. Tənqidi düşüncə ilə tənqidi oxu arasında birbaşa əlaqənin mövcud olması faktı belə deməyə əsas verir ki, tənqidi oxu prosesinin reallaşması tənqidi yanaşaraq düşünmədən mümkün hesab edilmir. Tənqidi oxu tənqidi düşünmə bacarıqlarının formalaşdırılmasında və artırılmasında bir vasitə kimi faydalı ola bilər. Müəyyən edilmişdir ki, tənqidi oxu vasitəsi kimi müxtəlif materialların dərs prosesində tətbiqi tənqidi düşüncəni və kreativ yanaşmanı artıra bilər.

**Açar sözlər**: *tənqidi təfəkkür, tənqidi yanaşma, öyrənmə prosesi, inteqrasiya, aspekt, strategiya.*

**Giriş**. Tənqidi təfəkkürün əhəmiyyəti özünü yaradıcılıq qabiliyyətinin ifadə üsulu ilə təqdim olunması və düşünmə tərzinin aşkara çıxarılmasında büruzə verir. Əlavə olaraq, tənqidi təfəkkür dil və təqdimetmə bacarığını inkişaf etdirməklə yanaşı, sistemli və aydın şəkildə düşünmə qabiliyyətini də formalaşdırır. Tənqidi düşüncə üçün yalnız bilik kifayət etmir, düzgün nəticə əldə edə bilmək üçün təhlil etmək və məlumatları və hadisələri analiz etmək bacarığı da xüsusi önəm kəsb edir. Bu bacarıq düzgün anlamaq və analiz etnək üçün lazımi istiqaməti müəyyən etməyə kömək edir (12).

Keçən əsrin əvvəllərindən etibarən, düşünmə bacarığının formalaşdırılması təhsilin əsas məqsədlərindən biri olaraq təyin edilmişdir (5). Diqqətin məlumat və məzmunun təhsilalana ötürülməsindən daha çox onların düşünmə qabiliyyətinin

formalaşdırılmasına yönəldilməsi əsas tendensiyaya çevrilmişdir. Bütün dünyadakı təhsil sistemi təhsilalanın tənqidi düşünmə bacarığının və problem həlletmə qabiliyyətinin formalaşmasına yönəlməyi daha vacib hesab edir.

Tənqidi yanaşma ilə fikir ayrılığını eyniləşdirmək məqsədəuyğun hesab edilmir. Belə ki, fikir ayrılığı ilə tənqidi düşünmə, tənqidi təfəkkür arasında kifayət qədər fərqlər mövcuddur. Fikir ayrılığı qarşı tərəfin fikirlərinin toqquşduğu məqamlarda ortaya çıxır. İstənilən bir fikrə qarşı əks fikrin səsləndiyi məqamlarda fikir ayrılığı yaranır, lakin bu tənqidi yanaşma hesab oluna bilməz. (1). Tənqidi yanaşma zamanı kimisə utandırmaq, təhqir etmək, alçaltmaq yolverilməzdir, bu zaman yalnız səslənən fikrin mübət və mənfi tərəfləri təhlil olunub araşdırılmalıdır.

Tənqidi təfəkkürü öyrənmə prosesinə inteqrasiya etmək üçün praktik strategiyaları aşağıdakı kimi qruplaşdıra bilərik:

1. *Ucadan düşünmək*

Təhsilverənlər ucadan düşünməklə tənqidi oxu strategiyalarını nümayiş etdirə bilərlər. Mətni oxuyaraq müəllifin arqumentlərini necə təhlil etdiklərini, hansı məqamları vurğuladıqlarını, təhlilləri necə qiymətləndirdiklərini göstərərək düşüncə proseslərini sözlə ifadə edə bilərlər. Bu strategiya təhsilalanlara tənqidi düşüncənin real situasiyada tətbiqini görməyə kömək edir və bu strategiyaları tətbiq etməyə təşviq edir.

2. *Müəllif mətnlərini oxumaq*

Digər bir vacib strategiya təhsilalanları oxumağa təşviq və motivasiya etməkdir. Onlar oxuduqları materiala münasibətlərini qeyd edə, vacib məqamları vurğulaya və müəllifin arqumentlərini anlaya bilərlər. Eləcə də, bu prosesdə təhlil, qiymətləndirmə və əks etdirmə bacarıqlarını asanlıqla tətbiq edə bilərlər.

3. *Qrup müzakirələri və debatlar*

Qrup şəklində müzakirələrinin və ya oxunan mətn üzrə debatların təşkili təhsilalanlarda tənqidi oxu bacarıqlarının inkişaf etdirilməsinə kömək edə bilər. Belə ki, təhsilalanlar digər qrup üzvlərinin şərhlərini dinlədikcə onların mətn haqqında anlayışları dərinləşir və analitik təhlil qabiliyyətləri artır. Bu müzakirələr həm də onları müxtəlif perspektivləri nəzərdən keçirməyə və fərqli aspektlərdən qarşılıqlı əlaqə qurmağa sövq edir.

4. *Mətn təhlili*

Təhsilverənlər təhsilalanlara struktur və dildən istifadə kimi elementlərə diqqət yetirərək mətnin ətraflı şərhini aparmağa kömək edə bilərlər. Mətni müxtəlif hissələrə ayırmaqla, öyrənənlər təkcə deyilənləri deyil, həm də necə deyildiyini və bunun nə üçün vacib olduğunu nəzərə alaraq tənqidi oxumağı öyrənirlər.

Tənqidi təfəkkür - məlumatları müxtəlif nöqteyi-nəzərdən təhlil etmək, dəyərləndirmək və əsaslandırılmış nəticələr əldə etmək bacarığı kimi müəyyən edilə bilər. Qərarlılıq, səbəb və nəticələrin düzgün qiymətləndirilməsi, müzakirə aparılaraq qaranlıq məqamların aydınlaşdırılması, məsələnin məğzinin təhlil edilməsi,

problemlərin məqsədəuyğun şəkildə həll edilməsi, nəzarət mexanizminin düzgün təşkil edilməsi tənqidi yanaşmanın uğurla həyata keçirilməsinə yol açır (1). Tənqidi düşüncə xırdalıqlara yersiz şəkildə üstünlük verilməsinə qarşı çıxır. Tənqidi yanaşma xırda və əhəmiyyətsiz xüsusiyyətlərə deyil, mahiyyətə önəm verilməsini vacib hesab edir. Tənqidi təfəkkür təhlil tələb edən bir proses olduğundan, detallara diqqət yetirilməsi də vacib hesab oluna bilər. Lakin tənqidi təhlil aparan şəxsin diqqət yetirməli olduğu məqam vacib detalların önə çıxarılması, vacib olmayanlara isə əhəmiyyət verilməməsidir.

Tənqidi təfəkkür öyrənmə prosesinin mühum elementlərindəndir. Öyrənmə prosesinin vacib bir mərhələsi olaraq düşünmənin bir növü olaraq dəyərləndirilən tənqidi yanaşma keçən əsrin uğuru hesab oluna bilər. Tədris prosesində təhsilalanlar müxtəlif dərəcəli əhəmiyyətə malik olan məlumatlar əldə edir ki, bu məlumatların bir çoxunun tənqidi analiz olunmasına ehtiyac duyulur. Tənqidi təfəkkürü yüksək inkişaf etmiş tələbələrin yeni məlumatı daha yaxşı qavraması və mənimsəməsi müşahidə olunur.

Bəzi tədqiqatçılar tənqidi düşünmə və tənqidi oxu bacarıqları arasındakı əlaqəni araşdırmağa çalışmışlar. Şihab tənqidi düşüncə ilə tənqidi oxu arasında birbaşa əlaqənin mövcud olduğunu iddia edərək göstərirdi ki, tənqidi oxu prosesinin reallaşması düşünmədən qeyri-mümkündür (14, s.210-211). Tənqidi oxu tənqidi düşünmə bacarıqlarının formalaşdırılmasında və artırılmasında bir vasitə kimi faydalı ola bilər. Müəyyən edilmişdir ki, qəzet və digər müxtəlif kütləvi informasiya vasitələrinin tənqidi oxu vasitəsi kimi dərs prosesində tətbiqi tənqidi düşüncəni artıra bilər.

*Tənqidi düşünmənin aspektləri*

Aparılmış təhlillər bizə belə deməyə əsas verir ki, tənqidi düşünmə bacarığının beş əsas xüsusiyyəti vardır:

1. *Əvvəlki məlumatları yadda saxlama*: əvvəlki məlumatları yadda saxlamaqla vəziyyəti daha yaxşı başa düşərək öyrənmə prosesini müəyyənləşdirmək mümkündür.
2. *Səmərəli mülahizə*: deduktiv və ya induktiv metoddan istifadə etməklə səmərəli düşünməyə, digərlərinin fərqli baxışlarına və fikir ayrılıqlarına pozitiv yanaşmağa imkan verir.
3. *Kompleks düşüncədən istifadə*: məlumatların tərkib hissələrinin bir-biri ilə qarşılıqlı əlaqəsini araşdırmaq, dərk etmək, kompleks sistemlər haqqında müxtəlif mühakimələr yürütmək bacarığını formalaşdırır.
4. *Mühakimə və qərar vermə*: müvafiq və lazımi sübutları axtarmaq, qiymətləndirmək, ümumiləşdirmək və təhlilə yönəlmiş nəticə çıxarmaq üçün düşünmə bacarıqlarından istifadə edərək səmərəli təhlillər aparılır.
5. *Problem həll etmə*: mühakimə və qərarvermə prosesini həyata keçirərkən effektiv təhlil etmək bacarığı formalaşdırılır.

Tənqidi düşüncə yaradıcı yanaşma və ya kreativlik tələb edən bir proses deyil. Tənqidi düşüncənin ciddi və dərin təhlil tələb etdiyini nəzərə alaraq, prosesin uğurla reallaşması səmərəli təhlilin həyata keçirilməsini şərtləndirir. Təhlilin tənqidi və yaradıcı tərəflərini fərqləndirsək də, onları bir-birindən ayrı təsəvvür etmək mümkün deyil. Effektiv tənqidi düşünməni bacaran tədqiqatçı müvafiq olaraq yaradıcı yanaşma qabiliyyətinə də malik olur (1). Tənqidi düşüncə yalnız başqalarının fikirlərinə və mövqelərinə deyil, həm də özümüzün yanaşmamıza tətbiq edilə bilər.

Düşünmə elementlərinə bacarıqlar, ölçülər və intellektual standartlar daxil edilir ki, onları da bir-birindən kənarda təsəvvür etmək mümkün deyil. İnformasiyanı topladığımız, konseptuallaşdırdığımız, tətbiq etdiyimiz, təhlil etdiyimiz, analiz və ya sintez etdiyimiz, eləcə də, qiymətləndirdiyimiz zaman, əsas məqsəd həll edilməli olan problemin təfəkkürün empirik ölçüsünə əsaslanaraq lazımi həll yolunun tapılmasından ibarədir (10, s. 126-129).

K.Yang tənqidi düşüncəyə dair “Critical thinking: What is it?” başlığı il dərc olunmuş vəsaitində tənqidi düşüncəyə bir çox təriflər vermişdir. Aradan keçən onilliklərdə tənqidi düşüncəyə müxtəlif izahlar təqdim olunsa da, onların əksəriyyətində eyni əsas prinsiplər nəzərə alınmışdır. Tənqidi düşüncə arzu olunan nəticənin əldə olunma ehtimalını artıran idrak bacarıqlarının və ya üsullarının istifadəsinə yönəlmiş olur. Tənqidi düşüncə məqsədyönlü və əsaslandırılmış olmalı, problemin həllinə fokuslanmalı, nəticə çıxarmaqda, ehtimalların hesablanmasında və qərarların qəbulunda aktiv iştirak edən düşüncə növü hesab olunmalıdır.

Biz tənqidi düşünəndə düşüncə proseslərimizin nəticələrini – qərarın nə qədər məqsədəuyğun və ya problemin nə qədər düzgün həll edildiyini qiymətləndirə bilirik (8). Bu izah müxtəlif nöqteyi-nəzərdən təhlil olunduğu üçün tənqidi təfəkkürə arqumentativ təhlil, qərar qəbul etmə bacarığı, idrak prosesi kimi də baxa bilərik (9). Akademik təcrübədən və ya tənqidi təfəkkürün təsviri üçün istifadə olunan söz bazasından asılı olmayaraq, bütün bu yanaşmalar ümumi fərziyyələr toplusu hesab olunur və dolayısıyla tənqidi düşünmə bacarığı öyrədilən və öyrənilə bilən qabiliyyət hesab olunur.

Tədris və öyrənmənin yeni istiqamətlərinin tənqidi təfəkkürə yönəlmiş olmasından asılı olaraq, bu prosesin həm də tələbəyönümlü olması faktı da nəzərə alınmalıdır. Tənqidi düşüncə düzgün kontekstdə düzgün bacarığın uğurlu istifadəsindən daha çox şey əldə etməyimizə yol aça bilər. Bu, həm də istənilən bir bacarığı tətbiq etmək tələb olunduqda lazım olan zehni əməyi göstərmək istəyini dərk etməyə kömək edir. Siars və Parsons bu meylləri tənqidi mütəfəkkirin etikası adlandırırlar. Əks halda, geniş tənqidi düşünmə bacarığına malik olsalar da, ondan istifadə etməyə meylli olmayan fərdlər formalaşa bilər. Heç kim düşünmə proseslərində iştirak etmədən hər hansı bir sahədə təcrübə qazana və ya bacarıqlarını inkişaf etdirə bilməz (15, s. 1062-1064). Beləliklə, biz təhsilalanları tənqidi

düşünməyə və uğur qazanaraq lazımi məqsədə çatmağa yönləndirmək istəyiriksə, onları düzgün analiz etməyə, təhlil və araşdırma apararaq problemlərin qoyuluşuna və həllinə daha yaradıcı yanaşmağa sövq etməyi bacarmalıyıq.

**Nəticə:** Tənqidi oxu bacarıqlarının inkişaf etdirilməsi koqnitiv psixologiyanın ümumi prinsiplərinə əsaslanaraq həyata keçirilə bilər. Bir çox dəyişikliklər ətraf aləmdə baş verən dəyişikliklərdən qaynaqlanarır, məsələn: texnologiyanın inkişafı və bu sahədəki yeni tələblər, keçmişdə qazanılmış təcrübəyə əsaslanaraq qazanılmış yeni bacarıqlar və s. Bu sahədəki yeni tələblərin artdığını və getdikcə mürəkkəbləşdiyini nəzərə alaraq, deyə bilərik ki, tənqidi oxu əldə oluna biləcək təlim nəticələrinin əsasını təşkil etməklə yanaşı, bu sahədə əldə edilmiş bacarıqların daha çox önəm kəsb etməsi də günümüzün reallığını əks etdirir.

Tənqidi təfəkürün öyrənmə prosesinə inteqrasiyası xüsusi önəm kəsb etdiyindən, təlim prosesində praktiki olaraq tətbiq vasitəsilə mənimsənilməsi xüsusi olaraq əhəmiyyət daşıyır. Bu zaman tətbiq oluna biləcək təlim metodları təqdimat (prezentasiya), yaradıcı (kreativ) yanaşma və tətbiqetmə hesab oluna bilər.

## İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYAHISI:

1. Barry, V. E. Invitation to Critical Thinking. CBS College, 1994.
2. Carr K.S. How can we teach critical thinking? // ERIC Dijest. (ERIC NO.: ED 326304). – 1990. – p. 7-15.
3. Cottrell, S. Critical thinking skills: Developing effective analysis and argument. Palgrave Macmillan. 2005.
4. Deller, S., & Rinvolucri, M. Using the Mother Tongue: Making the Most of the Learner's Language. Delta Publishing. 2002.
5. Dewey, J. Experience and Education. Colliner Books, 1939.
6. Halpern, D. F. "Teaching Critical Thinking for Transfer Across Domains: Disposition, Skills, Structure Training, and Metacognitive Monitoring." American Psychologist, 1998, 53, 449–455.
7. Halpern, D. F. Teaching for critical thinking: Helping college students develop the skills and dispositions of a critical thinker. New Directions for Teaching and Learning, 80 (2), - 2014, pp. 69-74. https://doi.org/10.1002/tl.8005
8. Halpern, D. F. Thought and Knowledge: An Introduction to Critical Thinking. (3rd ed.) Mahwah, N.J.: Erlbaum, 1998.
9. Kahane H., Cavender N.M. Logic and Contemporary Rhetoric: The Use of Reason in Everyday Life, Wadsworth Publishing, - 1997. 369 p.
10. Paul, R. The Four Domains of Critical Thinking. In J. Willsen, & A. J. A. Binker (Eds.), Critical Thinking: How to Prepare Students for a Rapidly Changing World, 1995, pp.123-132.

11. Pirozzi, R. P. Critical reading, critical thinking: A contemporary issues approach. Longman Inc. 2003.
12. Rayan, J. E. Wait, What? And Life's Other Essential Question. Harper Collins, 2017.
13. Seker, H., & Komur, S. The relationship between critical thinking skills and in-class questioning behaviors of English language teaching students. European Journal of Teacher Education, 31(4), - 2008, pp.389-402. https://doi.org/10.1080/02619760802420784
14. Shihab I.A. Reading as Critical Thinking. Asian Social Science. Vol. 7, No. 8, - 2011. pp. 209-218.
15. Wagner. R. K. Intelligence, training, and employment. American Psychologist, 52, - 1997. pp. 1059-1069.
16. Zivkovica, S. A model of critical thinking as an important attribute for success in the 21st century. International Conference on Teaching and Learning English as an Additional Language, 232(1), - 2016, pp.102-108. https://doi.org/10.1016/j.sbspro.2016.10.034.

**E.E.Putayeva**

## ON INTEGRATION OF CRITICAL THINKING INTO THE LEARNING PROCESS

### Summary

Critical approach is considered one of the components of the learning process, which is of particular importance. Critical approach, which is valued as an important stage of the learning process, can be an opportunity for learners to acquire various skills in the learning process. It is considered a learning process in which various information obtained is needed to be filtered and analyzed thinking critically. In the learning process, students with highly developed critical thinking abilities are observed to better perceive and assimilate new information.

Some researchers have tried to investigate the relationship between critical thinking and critical reading skills. The fact that there is a direct relationship between critical thinking and critical reading suggests that the realization of the critical reading process is not considered possible without critical approach and thinking. Critical reading can be useful as a tool in shaping and enhancing critical thinking skills. It has been established that the application of various materials as a means of critical reading in the learning process can increase critical thinking and creative approach.

**Key words:** *critical thinking, critical approach, learning process, integration, aspect, strategy.*

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 3, 2025*
*Səh. 76-82*

**Э. Э. Путаева**

## ОБ ИНТЕГРАЦИИ КРИТИЧЕСКОГО МЫШЛЕНИЯ В ПРОЦЕСС ОБУЧЕНИЯ

**Резюме**

Критический подход считается одним из компонентов процесса обучения, который имеет особое значение. Критический подход, который ценится как важный этап процесса обучения, может дать учащимся возможность приобрести различные навыки в процессе обучения. Это считается процессом обучения, в ходе которого необходимо отфильтровать и критически проанализировать большую часть полученной информации. В процессе обучения наблюдается, что учащиеся с высокоразвитыми способностями к критическому мышлению лучше воспринимают и усваивают новую информацию.

Некоторые исследователи пытались исследовать взаимосвязь между критическим мышлением и навыками критического чтения. Тот факт, что существует прямая взаимосвязь между критическим мышлением и критическим чтением, предполагает, что реализация процесса критического чтения невозможна без критического подхода и мышления. Критическое чтение может быть полезным в качестве инструмента для формирования и совершенствования навыков критического мышления. Было установлено, что применение различных материалов в качестве средства критического чтения в процессе обучения может способствовать развитию критического мышления и творческого подхода.

**Ключевые слова**: *критическое мышление, критический подход, процесс обучения, интеграция, аспект, стратегия.*

**Rəyçi: prof., fil.e.d., M.Qazıyeva**